# Qarabağda bərpa-quruculuq işləri geniş vüsət alıb



***Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirib ki, biz ötən il ərzində hədəfə aldığımız bütün məqsədlərə çatmışıq və qarşıda Ermənistanla sərhədləri delimitasiya edib möhkəmləndirmək, əraziləri minalardan tamamilə təmizləmək, zəruri infrastruktur yaradaraq soydaşlarımızı tezliklə dədə-baba torpaqlarına qaytarmaq vəzifəsi durur.***

Dövlət başçısının dediyi kimi, artıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, Ermənistanla qonşu olaraq necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi necə möhkəmlətmək haqqında düşünməliyik. İl ərzində bu yöndə çalışmalar səylə davam etdirilib: “Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük”.

Ölkəmizdə əsasən sosialyönümlü siyasət aparılır. Azad edilmiş torpaqlarda görülən işlər də əsasən sosialyönümlüdür. Ötən il Azərbaycanın bölgələrinə 47, o cümlədən azad edilmiş torpaqlara 32 dəfə səfər edən Prezident tədbirlərin icrasına şəxsən nəzarət edir. Dövlət başçısı təkcə Şuşa şəhərinə 7 dəfə gedib və mühüm obyektlərin açılışını edib, təməllərini qoyub, bayram tədbirlərinə qatılıb. Hər zaman da deyib ki, Şuşada, digər şəhər və kəndlərdə çox genişmiqyaslı işlər aparılır və aparılacaq.

İlk növbədə xarici siyasət sahəsində qazanılan nailiyyətlər iftixar hissi doğurur. Bu uğurlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artırıb. Regionda lider dövlətə çevrilmiş ölkəmiz burada öz reallıqlarını diktə edir və qətiyyətli siyasət yeridir. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinin daha bir il artırılması, ötən ilin sonunda keçirilmiş Soçi və Brüssel görüşləri xarici siyasət xəttimizin nə qədər səmərəli və uğurlu olduğunu bir daha sübut edib. Ölkə daxilində aparılan siyasət isə bir çox dövlətlər üçün əsl nümunə xarakteri daşıyır.

İşğaldan azad olunmuş rayonlarda genişmiqyaslı işlər aparılır. Buraya ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları da daxildir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanovun məlumatına görə, ümumilikdə, 20 165 hektar ərazi təmizlənib, 41 503 ədəd mina və partlamamış hərbi sursat aşkar edilib. Təkcə ötən ilin son həftəsində Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 2, tank əleyhinə 25 mina və 112 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həftə ərzində 97 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Kənd təsərrüfatı təyinatlı torpaqlar, məskunlaşma üçün nəzərdə tutulan ərazilər, nəqliyyat infrastrukturu və enerji xətləri üzrə areal təmizlənən ərazilərin bölgüsündə üstünlük təşkil edib.

Təəssüflə qeyd edək ki, Ermənistanın bizə verdiyi mina xəritələrinin formulyarları əsasən etibarsız, yararsız və qeyri-dəqiq olub. Buna görə də işlər daha intensiv aparılmalıdır ki, bərpa tədbirləri tormozlanmasın. Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin də nəzdində minatəmizləmə alayı yaradılıb, avadanlıqlar alınıb, xüsusi itlər hazırlanır. Amma nə qədər ki, Ermənistan dürüst mina xəritələrini Azərbaycana təhvil verməyib, əraziləri tam təmizləmək və insanların həyatını potensial ölüm təhlükəsindən xilas etmək mümkün deyil. Buna görə cari ildə də əlaqədar beynəlxalq qurumların vasitəsilə Ermənistana təzyiq göstərilməsi davam etməli və daha da gücləndirilməlidir.

Bu il “Şuşa ili” elan olunub. Deməli, mədəniyyət paytaxtımızda bərpa-quruculuq işləri daha da genişlənəcək. Qeyrət qalamız olan 270 yaşlı Şuşanın ağrı-acıları tamamilə aradan qaldırılacaq. Ermənilər heç zaman Şuşada, Ağdamda arın-arxayın oturmayıblar. Bu ulu torpaqlarda yabançı olduqlarını bildiklərinə görə bir gün mütləq qovulacaqlarının səksəkəsi ilə yaşayıblar. Odur ki, heç bir tikinti-quruculuq işi aparmayıblar, əksinə, ziyankarlıq edib və uçurub-dağıdıblar. Prezident İlham Əliyevin bu barədə söylədiyi ibrətamiz fikirləri hamımız yaxşı xatırlayırıq: “Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam”.




Biz bu dəfə daha “keçənə güzəşt” demirik. Ermənilərin ərazilərimizə vurduqları ziyan xarici mütəxəssislərlə birlikdə hesablanır və beynəlxalq məhkəmələr vasitəsilə bədəlinin ödənilməsinə çalışılacaq. Eyni zamanda, indi bu vəziyyəti düzəltmək missiyası bu torpaqların həqiqi sahiblərinin üzərindədir. Ona görə ki, sakinlərin Böyük Qayıdışı tezliklə təmin edilməlidir.

Bildiyimiz kimi, 2020-ci il ölkəmizdə “Könüllülər ili” elan olunmuşdu. Amma, COVID-19 pandemiyası və münaqişənin aktiv fazaya keçməsi geniş tədbirlər keçirməyə imkan vermədi. İndi isə “Şuşa ili”dir. Bu il könüllülər hərəkatını da genişləndirmək məqsədəuyğun olardı. Qurucu, yaradıcı könüllülərə Qarabağda geniş meydan verilsə, soydaşlarımız torpaqlarımıza daha möhkəm tellərlə bağlanar və bundan mənəvi güc alarlar. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bərpa layihələrin hazırlanması və icrasında yerli sakinlərin də iştirakı vacibdir. Bu işlərə Rusiyada, Türkiyədə və digər xarici ölkələrdə yaşayan imkanlı azərbaycanlıları da cəlb etmək olar. Məsələn, həmin şəxslər konkret layihə əsasında, arxitektura və şəhərsalma qaydalarına əməl etməklə öz hesablarına evlər inşa edə bilərlər. Çox sayda qarabağlı bunu etməyə razılaşar və dövlətin müəyyən mərhələdə yüklənməsi azalar. Beləliklə, qısa müddətdə Böyük Qayıdışı təmin edib, bütün sahələrin, o cümlədən turizmin inkişafına yüksək səviyyədə nail olmaq mümkündür.

Şuşada artıq iki mehmanxana – “Qarabağ” və “Xarıbülbül” otelləri ötən ilin yayında bərpadan sonra yenidən istifadəyə verilib. Buraya gələn xarici qonaqlar da, yerli ziyarətçilər də həmin otellərdə qalırlar. Beşulduzlu park-otel də tikilir. “Otel və Konfrans Mərkəzi” adlanan bu obyekt müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Prezident İlham Əliyev deyib ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada “beş”, “dörd” və “üç” ulduzlu otellər olmalıdır. Hazırda həmin istiqamətdə işlər reallaşdırılır.

Şuşanın iki gövhəri var: Qarabağ xanı İbrahimxəlil xanın qızının adını daşıyan Yuxarı və Aşağı Gövhərağa məscidləri. Hər ikisinin memarı Kərbəlayı Səfixan Qarabağlı olub. Özü də Şuşada tikinti materialı kimi bişmiş kərpiclə bərabər, çoxlu xalis qranit daşlardan istifadə olunub. Ermənilər həmin məscidləri və digər ibadət ocaqlarını da dağıdıblar. Amma gövhər yerə düşməklə qiymətdən düşməz ki! Bu gün artıq ikinci həyatını yaşayan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi kimi, həmin məscidlər də, digər tarixi-mədəni incilər də Heydər Əliyev Fondu tərəfindən bərpa edilir, yenidən qurulur. Yaxın vaxtlarda bu işlər başa çatdırılacaq.

Ermənilərin ekoloji terrora məruz qoyduqları Qarabağ və Şərqi Zəngəzur ərazilərinin yenidən yaşıl örtüyə bürünməsi də mühüm vəzifələrdəndir.

Ekoloji tarazlığın bərpası naminə ciddi addımlar atılır. Oktyabrın 26-da Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Zəngilan rayonunda “DOST Aqropark”ın təməlini qoymaları, orada çinar ağacı əkmələri torpaqlara can vermək amalının təzahürüdür.

Qeyd edək ki, prezidentlərimizin fəaliyyətinə xeyir-dua verdikləri bu kompleksin layihəsi türk və azərbaycanlı sərmayədarlar tərəfindən həyata keçirilir. Layihə üç mərhələdə icra olunmalıdır. İlk mərhələdə inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasını təmin edəcək. Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq.

İlboyu füsunkar təbiəti ilə hər kəsi heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan Qarabağ düz 30 il turizmin inkişafından kənarda qalmışdı. İndi azad olunmuş bu torpaqlarda turizmin inkişaf etdirilməsi gündəmin əsas mövzularından biridir. “Böyük Qayıdış” konsepsiyasına uyğun olaraq, bölgənin dirçəldilməsi və paralel olaraq turizmin genişləndirilməsi istiqamətində işlər daha da sürətləndirilməlidir. Azərbaycanın 2030-cu ilə qədər iqtisadi prioritetlərinə uyğun olaraq turizm strategiyası hazırlanır.

***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

Xalq qəzeti.-2022.-12 yanvar.-S.2.